# CNN əməkdaşı Azərbaycan Prezidentinin yüksək diplomatik məharəti ilə üzləşdi

***Son günlər ərzində şanlı Azərbaycan Ordusunun işğalçı Ermənistana qarşı əks-hücum əməliyyatları zamanı böyük uğurlar qazanması, torpaqlarımızın azad edilməsi Azərbaycanı sevməyən qüvvələrin narahatlığına səbəb olduğunu bilirdik. Amma CNN müxbirinin də Ermənistanın uğradığı məğlubiyyətdən bu qədər rəncidə düşdüyünü gözləmirdik. Bunu oktyabrın 9-da Azərbaycan Prezidenti İlham Əliyevin "CNN International" televiziya kanalının "Connect the World" verilişində yayımlanan müsahibəsi zamanı gördük. Müxbir sanki Ermənistanın səlahiyyətli nümayəndəsi kimi çıxış edir, təxribatçı suallar verirdi. Bu barədə tanınmış ziyalı, həyatını mətbuat və nəşriyyat işinə həsr etmiş Hacı Mehman FƏRZULLAYEV dedi:***



– Azərbaycan Ordusunun sürətli əks-hücumu və qısa müddətdə əldə etdiyi qələbələr çoxlarını çaşdırdı. Biz bunu Fransanın timsalında daha aydın gördük. Fransa hətta o qədər çaşmışdı ki, beynəlxalq hüquq normalarını, ilk günlərdən özünün ATƏT-in Minsk qrupunda vasitəçi olduğunu belə unutmuşdu. Məhz buna görə də Prezident İlham Əliyev verdiyi müsahibələrdə dəfələrlə bildirdi ki, Azərbaycan beynəlxalq hüquq normaları çərçivəsində hərəkət edir, özünün ərazi bütövlüyünü bərpa edir. Ermənistan isə təcavüzkar dövlətdir, beynəlxalq hüquqa zidd olaraq 30 ildir Azərbaycan torpaqlarını işğal altında saxlayır. Biz Fransanın, bəzi ölkələrin Ermənistanı dəstəkləməsinin nə demək olduğunu yaxşı anlayırdıq. Onlar Azərbaycanın tarixi torpaqlarının itirilməsi ilə barışmasını istəyirdilər. Qalibiyyətli Azərbaycan Ordusu isə bütün bu arzuların üzərindən xətt çəkdi.

Amma CNN əməkdaşının verdiyi suallar anlaşılan deyildi. Sanki bu şəxsi Ermənistanda öyrədib göndərmişdilər. O, israrla Ermənistan baş nazirinin danışdıqlarını yeganə həqiqət kimi qələmə verməyə, sanki Azərbaycanı ittiham etməyə çalışırdı. İnadla sübut etməyə çalışırdı ki, Türkiyə Azərbaycana kömək göstərib. Məsələn, bu sualı necə təxribatçı hesab etməmək olar: "Ermənistan prezidenti (baş naziri nəzərdə tutur-red.) ... mənə dedi ki, bu münaqişə əvvəlki toqquşmalardan kəskin şəkildə fərqlənir. Çünki Türkiyə Azərbaycana açıq şəkildə dəstək göstərir. Üstəlik, o, mənə dedi ki, Türkiyə öz zabitləri, generalları, muzdluları, terrorçu cihad döyüşçüləri ilə Dağlıq Qarabağda döyüşmək üçün Azərbaycana minlərlə adam gətirib. Türkiyə öz hərbi gücü ilə guya müəyyən beynəlxalq logistik strukturları qorumaq üçün orada olduğunu deyir. Azərbaycanda hazırda hər hansı bir türk qüvvələri və ya türk avadanlığı varmı?"

Təbii ki, Azərbaycan Prezidenti bu və digər təxribatçı suallara çox təmkinli və sərrast cavablar verdi. Bildirdi ki, bəli, bizdə türk silahları var və təkcə türk silahları yox, rus, İsrail, Belarus, Ukrayna silahları və sair var. Amma bu, o demək deyil ki, cəbhədə bizim əvəzimizə Türkiyə döyüşür. Prezident İlham Əliyev dedi: "Bu, yanlış informasiyadır. Türkiyə bizə dəstək göstərir, lakin bu, siyasi dəstəkdir, bu, diplomatik dəstəkdir. Bu dəstək olmasaydı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır" ifadəsi ilə bu çox açıq mövqe olmasaydı, çox güman ki, bu gün Ermənistan öz məqsədinə nail olmuş olardı. Bu da münaqişənin coğrafiyasının genişlənməsi və mümkün qədər çox ölkənin bu münaqişəyə cəlb olunmasından ibarətdir ki, bu ölkələr döyüş meydanında onlara kömək etsinlər. Mən, həmçinin ... 1990-cı illərin əvvəlində Ermənistan bizim torpaqları işğal etdikdə onun arxasında kimin durduğunu xatırlatmaq istəyirəm. Bizim torpaqlarımızı işğal etmək üçün onlara kimlərin kömək göstərdiyinə dair bizdə kifayət qədər sübut var. Buna görə Ermənistan tərəfindən "Azərbaycana kimsə kömək edir" demək tamamilə səhv və yanlış informasiyadır, biz bunu rədd edirik".

CNN müxbiri bununla qane olmur, yenə Türkiyənin üzərinə qayıdır, onun proseslərdə iştirakını boynumuza qoymağa cəhd edir. Azərbaycan Prezidenti isə yüksək diplomatik məharəti və peşəkarlığı ilə Ermənistanın və təbii ki, müxbirin bütün arqumentlərinin əsassız olduğunu sübut edir.

CNN əməkdaşı həm də hadisələrdən məlumatsız görünürdü. Onun sualına baxın: "Hazırda Sizin yürütdüyünüz kampaniyanın məqsədlərini açıq şəkildə bəyan edə bilərsinizmi?" Axı Prezident İlham Əliyev bu suala danışıqların getdiyi təxminən 30 ildən əlavə, təkcə son günlərdə bəlkə də yüz dəfə münasibət bildirib: "Biz ərazi bütövlüyümüzü bərpa edirik və biz haqlıyıq. Biz öz torpağımızda savaşırıq, Ermənistan digər ölkənin torpağında vuruşur".

***Söhbəti yazdı:***
***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***